***Məleykə MƏMMƏDOVA***
*AMEA Folklor İnstitutu Mifologiya şöbəsi*
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
*meleykememmed1@gmail.com*
*ORCID: 0000-0001-7714-4668*
*https://doi.org/10.59849/2309-7922.2026.1.104*

# AZƏRBAYCAN, QAQAUZİYA VƏ ANADOLU FOLKLORU KONTEKSTİNDƏ ALBASMADAN QORUNMA ÜSUL VƏ RİTUALLARI

**Xülasə**

Doğumdan sonrakı mərhələdə Anadolu, Azərbaycan və Qaqauziya ərazilərində geniş şəkildə müşahidə olunan ənənəvi rituallar, ana və yeni doğulmuş körpənin qorunmasına yönəlmiş xalq inanclarının mühüm təzahürlərindən biri kimi çıxış edir. Bu rituallar, zahılıq dövrünün ilk qırx günü ərzində ana və körpənin şər qüvvələrin, nəzərin və müxtəlif metafizik təsirlərin mümkün zərərindən mühafizə olunması məqsədi daşıyır. Türk xalq mədəniyyətində xüsusi semantik yükə malik olan bu inanclar sisteminə görə, doğumdan sonrakı ilk qırx gün həm ana, həm də körpə “qırxlı” statusunda dəyərləndirilir və bu dövr onların fiziki və mənəvi baxımdan həssas olduğu liminal bir mərhələ kimi qəbul edilir. Bu səbəbdən, zahılıq dövründə ana və körpənin sağlamlığının qorunması məqsədilə müxtəlif qoruyucu tədbirlər görülür və rituallar icra olunur.

Anadolu və Azərbaycan başda olmaqla geniş bir coğrafiyada tanınan “alqarısı” və ya “albastı” obrazı isə qırxlı ana və körpəyə zərər yetirə biləcəyi düşünülən şər ruh və ya demonoloji varlıq kimi təsvir edilir. Xalq təsəvvürlərində alqarısının insana bənzər, lakin uzun dırnaqlı, dağınıq saçlı, iri cüssəli və qorxuducu zahiri görkəmə malik olduğu qeyd olunur. Bu inanclara görə, alqarısı lohusalıq dövründə ana və körpə üçün ciddi təhlükəyə çevrilir. Bu səbəbdən ana və körpənin qırx günlük müddət ərzində tək buraxılmaması əsas qoruyucu tədbirlərdən biri hesab edilir. Eyni zamanda, alqarısının təsirini neytrallaşdırmaq məqsədilə duaların oxunması və müxtəlif simvolik əşyaların istifadəsi ilə müşayiət olunan rituallar icra edilir. Bu tip rituallar yalnız doğumdan sonrakı mərhələ ilə məhdudlaşmır, eyni zamanda ana və körpənin “albasma” ilə əlaqələndirilən metafizik təhlükələrdən qorunmasına yönəlmiş simvolik və praktik tədbirlər sistemi kimi çıxış edir. Albasma inancı, Türk xalqlarının ənənəvi dünyagörüşündə lohusalıq dövrünün liminal xarakter daşıması ilə əlaqədar formalaşmış və ana ilə körpənin bu mərhələdə xüsusi həssaslıq daşıdığı fikrini möhkəmləndirmişdir.

Mədəniyyətlərarası lokal fərqlərə baxmayaraq, Azərbaycan və Qaqauziya folklorunda albasma anlayışı oxşar semantik çərçivədə təqdim olunur və lohusalıq dövründə ana ilə körpənin qorunmasına dair davranış modellərini müəyyənləşdirir. Bu cəmiyyətlərdə albasmanın təsirinə məruz qalma ehtimalı nəzərə alınaraq,

lohusa qadının və körpənin sosial mühitlə təmasının məhdudlaşdırılması, ziyarətlərin nəzarət altında saxlanılması və qoruyucu ritualların icrası əsas prinsip kimi qəbul edilir. Beləliklə, albasma inancı ətrafında formalaşan rituallar, doğumdan sonrakı dövrü təkcə bioloji deyil, həm də ruhi və kosmik balansın qorunmasını tələb edən xüsusi bir mərhələ kimi dəyərləndirir və ana ilə körpənin həm fiziki, həm də mənəvi təhlükələrdən mühafizəsini təmin etməyə yönəlmiş kompleks mədəni mexanizm funksiyasını yerinə yetirir.

**Açar sözlər:** Azərbaycan, Qaqauziya, Anadolu, lohusalıq, albasma, alqarısı, ritual.

***Maleyka MAMMADOVA***

## METHODS AND RITUALS OF PROTECTION AGAINST ALBASMA IN THE CONTEXT OF AZERBAIJANI, GAGAUZ, AND ANATOLIAN FOLKLORE

### Abstract

In the postnatal period, traditional rituals widely observed in Anatolia, Azerbaijan, and Gagauzia represent a significant manifestation of popular beliefs aimed at protecting the mother and the newborn child. These rituals are intended to safeguard the mother and child during the first forty days of the postpartum period from potential harm caused by malevolent forces, the evil eye, and various metaphysical influences. According to this belief system, which holds particular semantic significance in Turkish folk culture, both the mother and the child are considered to hold a “forty-day” status during the initial forty days, a period recognized as a liminal stage in which they are physically and spiritually vulnerable. Accordingly, diverse protective measures are implemented and rituals performed to ensure the health and well-being of the mother and child throughout this sensitive period.

The figure of the “Alqarısı” or “Albastı,” widely recognized across a broad geographical area including Anatolia and Azerbaijan, is depicted as a malevolent spirit or demonic entity believed to harm the mother and newborn during the forty-day postpartum period. In popular imagination, the Alqarısı resembles a human being but is described as having long nails, disheveled hair, a large and imposing body, and a frightening appearance. According to these beliefs, the Alqarısı poses a significant threat to both mother and child during the postpartum period. Consequently, one of the primary protective measures involves ensuring that the mother and child are not left alone throughout the forty-day period. Simultaneously, rituals accompanied by the recitation of prayers and the use of various symbolic objects are performed to neutralize the influence of the Alqarısı. Such rituals are not limited to the immediate postpartum period but function as a system of symbolic and practical measures designed to protect the mother and child from metaphysical dangers associated with the Albasma. The belief in Albasma is rooted in the traditional worldview of Turkic peoples and is closely

linked to the liminal nature of the postpartum period, reinforcing the notion that the mother and child are especially vulnerable during this stage.

Despite intercultural and local variations, the concept of Albasma in Azerbaijani and Gagauz folklore is presented within a similar semantic framework and shapes behavioral patterns aimed at protecting the mother and newborn during the postpartum period. Considering the potential exposure to the influence of Albasma, these societies adopt key practices such as limiting the social interactions of the mother and child, supervising visitations, and performing protective rituals. Thus, the rituals surrounding the belief in Albasma frame the postpartum period not only as a biological phase but also as a distinct stage that requires the preservation of spiritual and cosmic balance, functioning as a complex cultural mechanism designed to safeguard both the physical and spiritual well-being of the mother and child.

**Keywords:** Azerbaijan, Gagauzia, Anatolia, postpartum, Albasma, Alqarısı, ritual.

***Малейка МАММЕДОВА***

## МЕТОДЫ И РИТУАЛЫ ЗАЩИТЫ ОТ АЛЬБАСМЫ В КОНТЕКСТЕ АЗЕРБАЙДЖАНСКОГО, ГАГАУЗСКОГО И АНАТОЛИЙСКОГО ФОЛЬКЛОРА

### Аннотация

В послеродовой период традиционные ритуалы, широко практикуемые в Анатолии, Азербайджане и Гагаузии, представляют собой значимое проявление народных верований, направленных на защиту матери и новорожденного ребенка. Эти ритуалы предназначены для охраны матери и ребенка в течение первых сорока дней послеродового периода от возможного вреда, причиняемого злыми силами, сглазом и различными метафизическими влияниями. Согласно этой системе верований, обладающей особым семантическим значением в турецкой народной культуре, и мать, и ребенок рассматриваются как находящиеся в «сорокодневном» статусе в течение первых сорока дней — период, признанный лиминальной стадией, когда они физически и духовно уязвимы. Соответственно, в этот чувствительный период применяются различные защитные меры и проводятся ритуалы для обеспечения здоровья и благополучия матери и ребенка.

Образ «Алгарысы» или «Альбасты», широко известный на обширной территории, включая Анатолию и Азербайджан, изображается как злой дух или демоническое существо, которое, как полагают, способно причинить вред матери и новорожденному в течение сорока дней после родов. В народных представлениях Алгарысы напоминает человека, однако описывается как обладающий длинными ногтями, растрепанными волосами, крупным телосложением и устрашающей внешностью. Согласно этим верованиям, Алгарысы представляет серьёзную угрозу для матери и ребёнка в после-

родовой период. Следовательно, одной из основных мер защиты считается недопущение пребывания матери и ребёнка в одиночестве на протяжении сорока дней. Одновременно проводятся ритуалы с чтением молитв и использованием различных символических предметов для нейтрализации воздействия Алгарысы. Такие ритуалы не ограничиваются только послеродовым периодом, но функционируют как система символических и практических мер, направленных на защиту матери и ребёнка от метафизических опасностей, связанных с Альбасмой. Вера в Альбасму формировалась в традиционном мировоззрении тюркских народов и тесно связана с лиминальным характером послеродового периода, что усиливает представление о том, что мать и ребёнок особенно уязвимы на этой стадии.

Несмотря на межкультурные и локальные различия, концепция Альбасмы в азербайджанском и гагаузском фольклоре представлена в схожей семантической рамке и формирует модели поведения, направленные на защиту матери и новорожденного в послеродовой период. С учетом возможного воздействия Альбасмы в этих обществах ключевыми считаются такие меры, как ограничение социальных контактов матери и ребёнка, контроль за визитами и выполнение защитных ритуалов. Таким образом, ритуалы, связанные с верой в Альбасму, рассматривают послеродовой период не только как биологическую фазу, но и как особую стадию, требующую сохранения духовного и космического равновесия, функционируя как комплексный культурный механизм, направленный на защиту физического и духовного благополучия матери и ребёнка.

**Ключевые слова:** Азербайджан, Гагаузия, Анатолия, послеродовой период, Альбасма, Алгарысы, ритуал.

**Giriş**

Qaqauziya, Azərbaycan və Anadolu kimi zəngin mədəni irsə malik coğrafiyalarda doğumdan sonrakı mərhələdə ana və uşağın qorunmasına yönəlmiş ənənəvi rituallar xüsusi əhəmiyyət daşıyır. Bu rituallar cəmiyyətin kollektiv yaddaşında formalaşan ortaq şüurun, dünyagörüşünün və nəsildən-nəslə ötürülən mədəni təcrübənin məhsulu kimi meydana gəlmişdir. Sözügedən mədəni mühitlərdə zahılıq dövrü həm fiziki, həm də metafizik baxımdan həssas mərhələ kimi qəbul olunur və xalq inanclarında "qırx basması", "çilləyə düşmə" və "lohusa basması" kimi ifadələrlə səciyyələndirilən mənfi təsirlərdən qorunma zərurəti ilə əlaqələndirilir. Bu səbəbdən lohusalıq dövrünə aid rituallar yalnız fərdi sağlamlığın deyil, eyni zamanda sosial-mədəni tarazlığın və mənəvi təhlükəsizliyin təmin olunmasına xidmət edən simvolik praktikalar sistemi kimi dəyərləndirilə bilər.

Azərbaycan və Anadolu folklorunda müşahidə olunduğu kimi, qaqauz mədəniyyətində də uşaq hələ doğulmamışdan etibarən onu müxtəlif mənfi təsirlərdən, zərərli enerjilərdən və nəzərdən qorumağa yönəlmiş kompleks qoruyucu üsul və rituallar formalaşmışdır. Bu üsul və rituallar xalq inanclarında cin, şeytan, pəri,

albastı kimi fövqəltəbii varlıqların mümkün təsirləri ilə əlaqələndirilir və eyni zamanda "çilləyə düşmə", "halbasma", "albasma" və "qırxbasma" kimi adlandırılan mənfi halların qarşısının alınmasına xidmət edir. Doğumdan sonrakı mərhələdə icra olunan rituallar arasında xüsusilə "qırxbasma" və "albasma" ilə bağlı qoruyucu tədbirlər ön plana çıxır. Xalq inanclarına görə, uşaq dünyaya gəldikdən sonra ilk qırx gün ərzində həm ana, həm də körpə xüsusi həssaslıq dövründə olur və bu səbəbdən "qırxlı" hesab edilir. Bu kontekstdə qırxlı qadın Azərbaycan folklorunda "zahı", qaqauz mədəniyyətində "luysa", Anadolu folklorunda isə "lohusa" termini ilə ifadə olunur. Müvafiq olaraq, doğumdan sonrakı bu qırx günlük mərhələ Azərbaycanda "zahılıq", Anadoluda isə "lohusalıq" anlayışları ilə səciyyələndirilir və xalq inancları sistemində qorunma tədbirlərinin intensiv şəkildə tətbiq edildiyi keçid mərhələsi kimi dəyərləndirilir.

Lohusalıq dövründə ana və körpənin "qırxlı" hesab edildiyi müddət ərzində xəstələnməsi və ya müxtəlif mənfi təsirlərə məruz qalması xalq inanclarında "qırx basması", "qırxa düşmə", "qırx qarışması", "lohusa basması" və "çilləyə düşmə" kimi terminlərlə ifadə olunur. Bu cür halların qarşısının alınması məqsədilə lohusalıq mərhələsində ana və uşağın zərərli enerjilərdən, nəzərdən və xalq təfəkküründə təhlükə mənbəyi kimi qəbul edilən bəzi varlıqların mümkün təsirlərindən qorunmasına yönəlmiş çoxsaylı qoruyucu tədbirlər tətbiq edilir.

Qaqauziya, Azərbaycan və Anadolu coğrafiyalarının müxtəlif bölgələrində icra olunan bu rituallar əsasən qırx günlük keçid mərhələsi boyunca ana və körpəni ziyarət edən şəxslərin nəzərindən, mənfi enerjisindən, alqarısı (albastı) ilə əlaqələndirilən təsirlərdən, eləcə də "qırxbasma" və "albasma" kimi inanclardan qaynaqlanan təhlükələrdən qorumağı hədəfləyir. Bu baxımdan sözügedən praktikalar yalnız fərdi səviyyədə qoruyucu funksiyanı deyil, eyni zamanda kollektiv inanc sisteminin və sosial nəzarət mexanizmlərinin bir hissəsi kimi çıxış edir.

Lohusalıq dövründə qırx gün ərzində ana və uşağın xüsusi mühafizəyə ehtiyac duyduğu düşüncəsi bir çox mədəniyyətlərdə ortaq xüsusiyyət kimi müşahidə olunur. Qırxlı qadının və körpənin qorunmasına yönəlmiş rituallar doğumdan sonrakı mərasimlər kompleksinin əsas tərkib hissəsini təşkil edir. Bu rituallar xalq inancları çərçivəsində yeni doğum etmiş qadının və körpənin cin, şeytan, albastı kimi fövqəltəbii varlıqların mümkün təsirlərindən, eləcə də mənfi enerjidən qorunmasını təmin etməyə yönəlmiş simvolik və praktik tədbirlər sistemi kimi dəyərləndirilə bilər.

**Albasmadan Qorunma Üsul və Ritualları**

Doğumun ilk günündən etibarən lohusa ana və yeni doğulmuş körpə üçün xalq inanclarında "qırxlı" adlandırılan və qırx gün davam edən həssas bir keçid mərhələsi başlanır. Bu mərhələdə ana və körpənin nəzər, mənfi enerjilər və fövqəltəbii varlıqların mümkün təsirlərinə qarşı xüsusi müdafiəyə ehtiyac duyduğuna inanılır. Bu məqsədlə bir sıra qoruyucu tədbirlər görülür və ritual xarakterli praktikalar icra olunur. Bu praktikalar arasında lohusa qadının başının altına bıçaq və ya qayçı kimi dəmir əşyaların qoyulması geniş yayılmış qoruyucu vasitələrdən bi-

ri kimi diqqət çəkir. Eyni zamanda, lohusa qadının evdən kənara çıxdıqda bu cür əşyaları özü ilə aparmasının, xüsusilə bıçağı ağzı açıq vəziyyətdə daşımasının zəruri olduğu düşünülür. Xalq inanclarına görə, bu qaydalara əməl edilmədiyi halda "al" və ya "al arvadı" adlandırılan zərərverici ruhani varlığın ana və körpəyə zərər yetirə biləcəyi ehtimalı mövcuddur. Sözügedən varlığın körpəni öldürməsi və ya ananın ciyərini çıxarıb aparması ilə bağlı rəvayətlər folklor mətnlərində və şifahi ənənədə geniş şəkildə yer alır. Bu səbəbdən lohusalıq dövründə qadının tək buraxılmaması xalq inanclarında xüsusi olaraq vurğulanır və bu tətbiq həm ana və uşağın fiziki təhlükəsizliyinin, həm də mənəvi-ruhani qorunmasının təmininə yönəlmiş sosial və mədəni nəzarət mexanizmi kimi dəyərləndirilə bilər (1, 312).

Qədim türk inanc sistemində mühüm yer tutan al ruhu, xalq mədəniyyətində özünəməxsus funksional və semantik məna daşıyan demonoloji obraz kimi formalaşmışdır. Xalq təsəvvüründə insan və heyvan xüsusiyyətlərinin sintezində təqdim olunan alqarısı (alarvadı) adətən öldürücü cin və ya div xarakterli varlıq kimi səciyyələndirilir. Folklor mətnlərində və şifahi ənənədə bu varlıq uzunboylu, uzun barmaqlı və iti dırnaqlı, saçları dağınıq, bədəni yağlı bir surət kimi təsvir edilir. Eyni zamanda onun əllərinin və ayaqlarının qeyri-mütənasib dərəcədə kiçik, dişlərinin iti olduğu, bir dodağının yerə, digərinin isə göyə qədər uzandığı bildirilir. Bəzi rəvayətlərdə alqarısının qara dərili simaya malik olduğu, nağıllardakı divlərə bənzər şəkildə döşlərini arxaya ata bildiyi və başının təpəsində tək gözünün yerləşdiyi vurğulanır. Bu demonoloji obrazın üzərində qırmızı rəngli libasın olması isə onun təhlükə, qan və ölüm semantikası ilə əlaqələndirilməsinə işarə edir.

Xalq inanclarına görə alqarısı xüsusilə lohusalıq mərhələsində olan qadın və yeni doğulmuş körpə üçün ciddi təhlükə mənbəyi kimi qəbul edilir və "qırxlı" dövründə onlara zərər yetirə, hətta ölümə səbəb ola bilən fövqəltəbii varlıq hesab olunur. Bu inam kontekstində ana və körpənin doğumdan sonrakı ilk qırx gün ərzində tək buraxılmaması, yaşadıqları mühitin müxtəlif qoruyucu vasitələrlə təmin edilməsi və mühafizəedici ritualların ardıcıl şəkildə icra olunması zəruri sayılır. Sözügedən inanclar və praktikalar alqarısı obrazının yalnız mifoloji qorxu elementi kimi deyil, eyni zamanda lohusalıq dövründə sosial davranışları tənzimləyən, kollektiv məsuliyyəti və nəzarət mexanizmlərini gücləndirən simvolik sistem kimi fəaliyyət göstərdiyini ortaya qoyur. Xalq inanclarında "al arvadı" adı ilə də tanınan bu varlıq albastı və ya al qarısı kimi adlarla da yad edilir. Türk folklorunda o, adətən al rəngli geyimdə, yarı insan, yarı heyvan xüsusiyyətləri daşıyan, uzunboylu və ağbəniz demonoloji fiqur kimi təsvir olunur (9, 62-63). Xüsusilə lohusa qadınlara zərər vermə potensialına malik olduğu düşünülən bu varlığın müəyyən gecələrdə, xüsusilə altıncı gecə daha təhlükəli sayılması diqqət çəkir. Bununla yanaşı, bəzi əfsanə və rəvayətlərdə alarvadının sinəsinə sancaq taxıldıqda onun gücsüzləşdiyinə və hərəkət imkanlarının məhdudlaşdığına inanıldığı qeyd olunur. Bu ritualın icrası nəticəsində albastının and içərək həmin ailəyə beş nəsil boyunca zərər verməyəcəyinə dair vəd verdiyi nəql edilir. Bütün bu qoruyucu tədbirlərə baxmayaraq, lohusa qadınların folklor düşüncəsində hələ də qorxu və

ehtiyat hissi ilə hərəkət etdikləri, özlərini dəmir əşyalar vasitəsilə qorumağa davam etdikləri müşahidə olunur. Bu fakt, alarvadı inancının yalnız mifoloji səviyyədə deyil, gündəlik həyat praktikalarında da davranış formalaşdıran davamlı mədəni kod kimi yaşamaqda olduğunu göstərir (1, 312-313).

Folklor mətnlərində doğum zamanı qadının huşunu itirməsi və ya həyatını itirməsi halları çox zaman halanasının onu apardığı inancı ilə izah edilir. Eyni zamanda, halanasının doğum edən qadının ciyərini çıxarıb apardığına dair təsəvvürlər xalq inanclarında geniş şəkildə yayılmışdır. Xüsusilə doğumun gecikdiyi və ya çətin keçdiyi vəziyyətlərdə halanasının evin damında oturaraq doğum prosesinə mane olduğu, ananın ciyərini çəkib aldığı düşünülür. Bu demonoloji varlığın təsirini dəf etmək məqsədilə müxtəlif qoruyucu və qorxuducu praktikalar tətbiq olunur. Bu çərçivədə havaya atəş açılması, doğum edən qadının ətrafına şiş və ya iti alətlərlə dairə çəkilməsi və beləliklə, onun qorunmuş məkan daxilində saxlanılması geniş yayılmış rituallardandır. Xalq inanclarına görə, bu cür simvolik dairə halanasının həmin məkanın daxilinə nüfuz etməsinə mane olur. Bununla yanaşı, qapının ağzına faraş qoyulması halanasının evə daxil olmasının qarşısını almağa yönəlmiş başqa bir qoruyucu vasitə kimi çıxış edir (10, 126).

Qaqauzlar arasında doğum ritualları dərin mənəvi məzmun daşıyan və zəngin inanc sistemi çərçivəsində formalaşmış mədəni praktikalar toplusu kimi diqqət çəkir. Qaqauz cəmiyyətində doğum hadisəsi yalnız bioloji proses kimi deyil, müxtəlif rituallar və sakral inanclarla əhatələnən xüsusi və müqəddəs mərhələ kimi dəyərləndirilir. Doğuma hazırlıq mərhələsində, xüsusilə doğumdan təxminən bir həftə əvvəl hamilə qadının "yüklərini üzərindən atmaq" məqsədilə günah çıxarması və duaların oxunması ana namizədinin mənəvi baxımdan təmizlənməsinə və doğum prosesinə psixoloji cəhətdən hazırlanmasına xidmət edir. Qaqauz inanclarına görə, doğumdan üç gün əvvəl başlayan və doğumdan üç gün sonranı əhatə edən altı günlük zaman kəsiyi qadın üçün ən həssas və təhlükəli mərhələ hesab olunur. Bu müddət ərzində qadına su əvəzinə araq verilməsi ənənəvi praktikalar sırasında yer alır; su içməyin ana namizədini ölümə sürükləyə biləcəyi inancı ilə bu davranış əsaslandırılır. Sözügedən tətbiq doğum prosesinin fövqəltəbii təhlükələrlə əlaqələndirildiyini və qadının bədəninin bu mərhələdə xüsusi qayğıya ehtiyac duyduğu düşüncəsini əks etdirir. Doğuma hazırlıq çərçivəsində evdə saxlanılan və xalq arasında "Panayının əli" adı ilə tanınan bitki isə qaqauz doğum rituallarının simvolik elementlərindən biri kimi ön plana çıxır. Qaqauz inanclarına görə, bu bitki İsraildən zəvvarlar tərəfindən gətirilmiş və Məryəmin İsanı dünyaya gətirərkən toxunduğu müqəddəs bitki kimi qəbul edilir. Bitkinin kök quruluşunun içəriyə doğru bükülən budaqları ilə insan ovcunu və barmaqlarını xatırladan formaya malik olması onun simvolik mənasını gücləndirir. Doğum başladıqda bitkinin suya salınması və köklərindən ayrılan budaqların doğumun asan keçəcəyinə, ayrılmayanların isə çətin olacağına işarə kimi yozulması ritualın proqnostik funksiyasını ortaya qoyur. Doğumdan sonra həmin bitkinin qurudularaq saxlanılması və növbəti doğum zamanı yenidən istifadəsi bu ritualın davamlılığını və nəsildən-nəslə

ötürülən mədəni irs xarakterini nümayiş etdirir. Sözügedən praktikalar qaqauz xalqının inanc dünyasını, dini təsəvvürlərini və doğumla bağlı formalaşmış mədəni dəyərlər sistemini əks etdirən mühüm etnoqrafik material kimi dəyərləndirilə bilər (6, 27).

Azərbaycan xalq inanclarında yeni doğum etmiş qadının alarvadı ilə əlaqələndirilən mənfi təsirlərdən qorunması məqsədilə məkanla bağlı xüsusi sərhədlər müəyyənləşdirilir və simvolik qoruyucu praktikalar icra olunur. Bu çərçivədə zahı qadının yerləşdiyi məkanın ətrafına müəyyən xətt çəkilir və həmin sərhədin yalnız zahı tərəfindən keçilə biləcəyi, digər varlıqların isə bu hüdudu aşmaq gücünə malik olmadığına inanılırdı. Sözügedən xətt zahının təhlükəsizliyini təmin edən müqəddəs və qorunmuş məkan kimi qavranılırdı. Bununla yanaşı, zahı qadının istifadə etdiyi qab-qacağın üç gün müddətində yuyulmaması, çirkli vəziyyətdə otaqda saxlanılması və yalnız üstünün örtülməsi geniş yayılmış praktikalar sırasında yer alırdı. Xalq inanclarına görə, bu tətbiq cin və digər zərərli ruhani varlıqların çirkli əşyalara toxunmaqdan çəkinməsi düşüncəsinə əsaslanır və beləliklə, onların zahı qadına yaxınlaşmasının qarşısını almağa xidmət edirdi (3, 162; 7, 467). Bu tip qoruyucu tədbirlər Azərbaycan folklorunda zahılıq dövrünün yalnız bioloji deyil, eyni zamanda metafizik təhlükələrlə müşayiət olunan həssas keçid mərhələsi kimi qavranıldığını göstərir. Sözügedən praktikalar həm qoruyucu magik funksiyaya malik rituallar, həm də zahı qadının sosial-mədəni baxımdan nəzarət altında saxlanılmasını təmin edən simvolik mexanizmlər kimi dəyərləndirilə bilər.

Qaqauziyada doğum prosesi zamanı qədim inanc sisteminə əsaslanan və magik-simvolik məna daşıyan ritualların icra edildiyi müşahidə olunur. Doğuma çağırılan əbə (mama), pis ruhları və şər qüvvələri uzaqlaşdırmaq məqsədilə otağın küncünə üç dəfə tüpürər, ardınca fartasını (önlüyünü) çıxararaq doğum edən qadının çiyinlərinə səpərdi. Bu hərəkət doğum məkanının metafizik baxımdan təmizlənməsi, şər qüvvələrin dəf edilməsi və eyni zamanda sancıların yüngülləşdirilməsi məqsədi daşıyan simvolik qoruyucu ritual kimi dəyərləndirilir. Eyni inanc sisteminin gündəlik həyata yansıması olaraq, şeytanı və mənfi təsirləri uzaqlaşdırmaq niyyəti ilə sol çiyin üzərindən tüpürmək adətinə də rast gəlinir. Doğumdan əvvəl hamilə qadının saçlarının açılması, üzərindəki bütün zinət əşyalarının, düyün və bağların çıxarılması da geniş yayılmış qoruyucu praktikalar sırasındadır. Xalq inanclarına görə, bu tətbiqlər qadının nəzərdən və mənfi enerjidən təmizlənməsinə, doğum prosesinin maneəsiz və təhlükəsiz şəkildə başa çatmasına xidmət edir (6, 27-28). Oxşar inanclara Türkiyə coğrafiyasında da rast gəlinir. Burada doğum zamanı qadının saç hörüklərinin və geyimindəki düymələrin açılması və bağlanmış kəmərlərin boşaldılması adəti mövcuddur. Sözügedən rituallar doğumun asanlaşması və ana ilə körpənin sağlamlığının qorunması məqsədi daşıyan qədim xalq inanclarının müasir dövrə qədər davam edən mədəni izləri kimi qiymətləndirilə bilər (10, 127).

Qaqauz mədəniyyətində hamilə qadının ətrafındakıları şər ruhlardan qorumaq məqsədilə müəyyən rituallara cəlb edildiyi müşahidə olunur. Hamiləlik həm

ana, həm də onun ətrafı üçün xüsusi diqqət tələb edən mistik mərhələ kimi dərk edilir və bu dövrdə qadının pak olmadığı düşünülərdi. Ana və körpəni şər ruhlardan qorumaq üçün dualar oxunar, bəzən isə tüfənglə havaya atəş açılaraq mənfi enerjilərin uzaqlaşdırılmasına çalışılardı. Doğum zamanı doğum otağı rituallarla təmizlənir və uyğun vəziyyətə gətirilirdi. Otağa kilsədə müqəddəsləşdirilmiş ayazma suyu səpilərək mühitin mənəvi baxımdan təmizləndiyinə inanılırdı. Qaqauz türklərində doğumun çətin keçməsi halında qədim inanclara və rituallara müraciət edilərək doğumun asanlaşdırılması hədəflənirdi. Əgər sancılar kəsilməz və doğum irəliləməzsə, doğumu sürətləndirmək üçün qadın hərəkət etdirilər və ya müəyyən simvolik tətbiqlər icra olunardı. Məsələn, hamilə qadın otaqda gəzdirilər, daha sonra maşa üzərindən atladılaraq doğumun gedişinin dəyişdirilməsinə çalışılardı. Hətta qadının saçları ağzına salınar, ərinin ayaqları yuduzdurularaq həmin sudan qadına içirdilərdi. Bu hərəkətin doğumu sürətləndirəcəyinə inanılırdı. Bundan əlavə, hamilə qadının ayaqları ilə qapını vurması evin cinini qovmaq mənasını daşıyırdı; çünki cinlərin eşikdə və ya qapı arxasında gizləndiyinə inanılırdı. Fiziki tətbiqlərlə yanaşı, mənəvi rituallara da yer verilirdi. İkonanın qarşısında şam yandırılar və xüsusi dualar oxunaraq doğumun müqəddəsləşdirildiyi düşünülürdü. Evin bərəkəti və doğumun asan keçməsi üçün ərinin qayışı və ya kəməri tavandan asılar, evin bağlarının çözülməsi məqsədilə ananın hörükləri və geyimindəki düymələr açılardı. Bundan başqa, ananın rahatlaması üçün isti hamam qəbul etdirilər, masaj vasitəsilə sancıların azaldılması təmin olunardı. Bütün bu rituallar qaqauz mədəniyyətində doğum prosesini asanlaşdırmaq və ananın qoruma altında olduğunu hiss etdirmək üçün icra edilən xüsusi üsullar idi (6, 28-29). Bu rituallar doğumun sağlam və təhlükəsiz şəkildə tamamlanmasına yönəlmiş qədim qaqauz inanclarının tərkib hissəsi olmuşdur.

Yeni doğulmuş körpənin qorunmasına yönəlmiş ənənəvi üsullar, adətən plasentanın (ciftin) müəyyən bir məkanda dəfn edilməsi ilə başlanırdı. Ana ilə üzvi bağlılıq daşıyan ciftin parçaya bükülərək torpağa basdırılması və ya təmiz axar suya buraxılması (2, 43; 5, 198) körpəni mümkün zərərli təsirlərdən qorumaq məqsədi daşıyan ritual xarakterli davranış kimi dəyərləndirilə bilər. Lakin bu rituallar regional xüsusiyyətlərə görə fərqlilik göstərirdi. Məsələn, Türkiyənin Qars bölgəsində plasentanın axar suya buraxılması məqbul hesab edildiyi halda, Azərbaycanın Qarabağ bölgəsində bu cür tətbiq uyğun sayılmır, əksinə, ciftin gül kolunun dibinə basdırılması tövsiyə olunurdu. Bu inanc sistemində plasentanın dəfn edildiyi məkan körpənin gələcək taleyi ilə birbaşa əlaqələndirilirdi. Qarabağ bölgəsində geniş yayılmış təsəvvürlərə görə, plasentanın suya atılması əvəzinə gül kolunun dibinə basdırılması uşağın təmiz, saf və sağlam böyüməsinə zəmin yaradırdı (7, 468; 4, 368). Bununla yanaşı, sözügedən ritualın ana və körpəni "hal anası" adlandırılan şər varlıqdan qoruduğuna inanılırdı.

Alarvadından (Alqarısından) qorunmaq məqsədilə müxtəlif magik-simvolik üsullara müraciət edilirdi. Bu çərçivədə alqarısının üzərinə sancaq taxılması, ayağının altına sancılması və ya üzərinə qatran tökülməsi onun təsirsiz hala gətirilmə-

si vasitələri kimi qəbul edilirdi. Belə inanclara əsasən, bu tədbirlər sayəsində alqarısının ana və körpəyə zərər verməsinin qarşısı alınır, hətta onun apardığı körpənin ciyərinin geri qaytarıldığı düşünülürdü. Xalq inanclarında alqarısına qarşı qoruyucu gücə malik olan şəxs "ocaqlı" və ya "alıcı" kimi adlandırılırdı. İnanca görə, alıcı statusuna malik şəxsin ailə üzvləri də bu şər varlıqdan sığortalanmış sayılır, həmin şəxsə aid əşyaları üzərində daşıyanların alqarısından zərər görməyəcəyi qəbul edilirdi. Folklor mətnlərində alqarısının gizləndiyi və fəaliyyət göstərdiyi məkanlar əsasən tövlələr, samanlıqlar, xarabalıqlar, su kənarları və çeşmə ətrafları kimi təsvir olunur. Onun mövcudluğunun ən bariz əlamətlərindən biri isə tövlələrdə atların quyruqlarının hörülmüş vəziyyətdə tapılması hesab edilirdi (5, 201; 2, 48-49).

Albasmanın qarşısının alınması məqsədilə lohusa qadınlar və yeni doğulmuş körpələr üçün müxtəlif rituallar icra edilirdi. Məsələn, körpə dünyaya gəldikdən sonra mama lohusa qadına böyük bir soğan verərək onu dişləməsini, lakin qoparmamasını istəyərdi. Daha sonra soğan kabab şişinə keçirilərək dayə tərəfindən lohusa qadının yatağına gətirilər və başının altına qoyulardı. Bu zaman qadına "Məryəm" deyə müraciət edilər, qadın isə "bəli" cavabını verərdi. Ritualdan sonra şamlar söndürülər və mama kabab şişi ilə otağın divarlarına cızıqlar ataraq "Məryəmin çəpərini çəkirəm" deyərdi. Bu ritual üç dəfə təkrarlanardı və ardınca kəklikotu toxumları lohusa qadının və körpənin otağına, yatağına səpilərdi (1, 384-385). Bu rituallar lohusa qadın və körpəni alqarısından qorumaq, gələcək doğumlar üçün müsbət zəmin yaratmaq məqsədi daşıyır və adətən ilk uşaq üçün icra edilirdi.

Lohusa qadının başucuna soğan, daraq, kişi geyimi, iynə, yaşlı qadınların verdiyi muncuqlar qoyular, yastığının altına isə çörək yerləşdirilirdi. Qadının zərər görməməsi üçün yatağın ətrafı qalın iplərlə sarılar, yaxasına sancaq taxılardı. Qırx gün ərzində körpənin geyimləri yuyulmaz, ana və körpə tək buraxılmaz, otaqda isə işıq söndürülməzdi (2, 49). Doğumdan sonra lohusa qadının iki saat ərzində uzanmamasına diqqət edilərdi, çünki alqarısının gəlib onun ürəyini ala biləcəyinə inanılırdı. Bu səbəbdən otağın qapısına qızıl asılardı; çünki gulyabaninin (alqarısının) dəmirdən qorxduğu və qızıldan qaçdığı düşünülürdü. Anadolunun müxtəlif bölgələrində alqarısından qorunmaq məqsədilə qırxlı ana və körpənin olduğu məkanlara süpürgə, Qurani-Kərim, soğan, sarımsaq və nəzərliklər asılar; yastıqlarının altına Qurani-Kərim, qılınc, oraqlar, bıçaq, maşa, dəmir, daş, çörək, soğan, kişi şalvarı, sviter, iynə və çuvaldız qoyulardı. Anaya ocaqlı papaq, köynək və ya kişi külahı geyindirilərdi (5, 202). Oxşar tətbiqlərə Azərbaycanda və Qaqauziyada da rast gəlinir. Qaqauzlar lohusalıq dövrü boyunca ana və körpəni tək buraxmaz, albastıdan qorunmaq üçün körpənin beşiyinə qırmızı saplar, gümüş bilərziklər, nəzər muncuqları, süpürgə, qayçı, bıçaq, mismar və açar kimi əşyalar yerləşdirərdilər. Körpə tək qaldıqda yanına süpürgə və ya dəmir əşya qoyular, ana otaqdan çıxarkən özü ilə metal alət və ya süpürgə apardı (6, 46). Güney Azərbaycanda isə körpənin doğumundan sonra ana və yenidoğulmuşu "alarvadı" kimi

şər varlıqlardan qorumaq məqsədilə müxtəlif qoruyucu rituallar icra edilirdi. Bu çərçivədə, ananın yatağının ətrafı qayçı ilə cızılaraq simvolik sərhədlər çəkilir, bir soğan bıçağa və ya digər dəmir əşyaya taxılaraq yatağın yaxınlığına qoyulurdu. Bu praktikaların zərərli varlıqların ana və körpəyə yaxınlaşmasının qarşısını aldığına inanılırdı. Zahı qadının başucuna Qurani-Kərimin yerləşdirilməsi isə mühüm dini-mənəvi qoruyucu vasitə kimi qəbul olunurdu. Eyni zamanda, doğum zamanı ana və körpənin olduğu otağa yalnız müəyyən şəxslərin daxil olmasına icazə verilir, zərurət yarandıqda isə əvvəlcə körpə otaqdan çıxarılır, bundan sonra digər şəxslərin otağa daxil olmasına icazə verilirdi (1, 439). Zahı qadının hamama getməzdən əvvəl otaqdan çıxmamasına xüsusi diqqət yetirilir, yalnız zəruri hallarda başına soğan taxılmış bıçaq və ya şiş götürərək çölə çıxmasına icazə verilirdi. Ana və körpənin doğumdan sonrakı ilk qırx gün ərzində tək qalmaması mühüm qoruyucu prinsip kimi qəbul olunur, xüsusilə altıncı gecə təhlükəli zaman kəsiyi hesab edilirdi. Xalq inanclarına görə, bu gecə cinlərin və şər ruhların körpəni dəyişdirərək onu öz "həmzad"ları ilə əvəz etmə ehtimalı mövcud idi. Bu təhlükənin qarşısını almaq məqsədilə qapı önünə dəmir əşyalar qoyular, yüksək səslər çıxarılaraq şər qüvvələrin qorxudulacağına inanılar, dualar oxunar, əllər çırpılar, qapı və pəncərələr tüstü ilə tüstülənərdi. Bu rituallar icra edilən zamanı mama tərəfindən lohusa qadın bəzədilir, üzərlik otu yandırılaraq onun tüstüsü otağın bütün guşələrinə üfürülərdi. Eyni zamanda, üzərlik toxumu lohusanın alnına, çiyinlərinə, sinəsinə və ayaqlarının altına yerləşdirilir, körpə oğlan olduqda isə gözlərinə sürmə çəkilirdi. Bundan əlavə, lohusa qadının və körpənin yatağına şər ruhları uzaqlaşdırmaq məqsədilə yeddi ədəd iynə qoyulurdu. Mama digər bir qadınla birlikdə körpənin yatağına az miqdarda düyü səpir, yeddi dəfə İxlas surəsini oxuduqdan sonra bu düyünü otağın və ananın yatağının kənarlarına səpərdi (1, 440). Bu praktikalar vasitəsilə cinlərə və alarvadına qarşı simvolik qoruyucu qalxanın yaradıldığına inanılırdı. Doğumdan sonrakı ilk qırx günlük dövrdə lohusa qadını və körpəni kənardan gələn mənfi təsirlərdən, xüsusilə nəzərdən qorumaq məqsədilə əlavə tədbirlər də görülürdü. Qırxı tamam olmamış uşağın olduğu evə gələn qonaqların "ağırlığının" körpəyə zərər verə biləcəyi düşünülür, bu səbəbdən qonaqlar evə daxil olmamışdan əvvəl körpə müvəqqəti olaraq çölə çıxarılır, qonaq evə girdikdən sonra isə yenidən evə gətirilirdi. Həmin şəxs sonradan eyni evə təkrar gəldikdə əlavə qoruyucu tədbirə ehtiyac duyulmurdu (1, 312). Bu tip praktikaların yalnız Güney Azərbaycanda deyil, Azərbaycanın digər bölgələrində, eləcə də Anadolu ərazisində geniş yayılması onların ümumtürk mədəni təfəkküründə ortaq semantik əsaslara söykəndiyini göstərir (8, 127-128). Albasmanın təsirinə məruz qaldığına inanılan qadınlar üçün əsasən iki növ qoruyucu ritual icra edilirdi. Birinci ritual zamanı qadının qarşısında at kişnədilir, bu səsin albasmanın təsirini dəf edərək qadını qoruyacağına inanılırdı. İkinci ritualda isə şər ruhları uzaqlaşdırmaq məqsədilə qadının bədəni üzərində çəngəlli iynə gəzdirilirdi (2, 50).

**Nəticə**

Bu araşdırmada Azərbaycan, Qaqauziya və Anadolu folklorunda doğumdan sonrakı dövrdə ana və körpənin qorunmasına yönəlmiş albasma inancı və ona qarşı tətbiq olunan ritual-praktikalar müqayisəli şəkildə təhlil edilmişdir. Təhlillər göstərir ki, lohusalıq dövrü xalq dünyagörüşündə yalnız fizioloji bir mərhələ kimi deyil, eyni zamanda fövqəltəbii təhlükələrə açıq, xüsusi qorunma tələb edən həssas bir zaman kəsiyi kimi qavranılır. Bu kontekstdə albasma, ana və körpəyə yönəlmiş əsas təhlükə mənbələrindən biri olaraq demonoloji xarakter daşıyan şər varlıq kimi təsəvvür edilir.

Müxtəlif bölgələrdə qeydə alınmış qoruyucu praktikalar, dəmir və kəsici əşyaların istifadəsi, üzərlik otu ilə tüstüləmə, duaların oxunması, qoruyucu əşya və tilsimlərin tətbiqi albasmanın zərərli təsirini neytrallaşdırmağa yönəlmiş simvolik və praktik vasitələr kimi çıxış edir. Bu ritual davranışlar xalq inanclarında maddi və mənəvi elementlərin qarşılıqlı vəhdətdə fəaliyyət göstərdiyini və qoruma anlayışının çoxqatlı semantik struktura malik olduğunu ortaya qoyur. Eyni zamanda, lohusa qadının tək buraxılmaması, ziyarətlərin məhdudlaşdırılması və müəyyən davranış normalarına riayət edilməsi kimi tətbiqlər bu inancların sosial nəzarət, kollektiv məsuliyyət və icma həmrəyliyi mexanizmləri ilə sıx bağlı olduğunu göstərir.

Araşdırma nəticələri onu da ortaya qoyur ki, Azərbaycan, Qaqauziya və Anadolu folklorunda müşahidə olunan oxşar albasma inancları türk xalqlarının ortaq mifoloji düşüncə sisteminə və paylaşılan mədəni kodlara əsaslanır. Bununla yanaşı, hər bir bölgədə ritual praktikaların yerli mədəni mühitin xüsusiyyətlərinə uyğun şəkildə formalaşması bu inancların dinamik və adaptiv xarakter daşıdığını sübut edir. Lakin müasir həyat tərzinin və tibbi yanaşmaların yayılması ilə bu cür inancların və onlarla bağlı praktikaların tədricən unudulmaq təhlükəsi ilə üzləşdiyi də müşahidə olunur.

Nəticə etibarilə, albasmadan qorunma ilə bağlı rituallar xalqın doğum və analıq prosesinə yüklədiyi sakral məna sisteminin mühüm komponentlərindən birini təşkil edir. Bu rituallar yalnız qoruyucu funksiyaya malik deyil, eyni zamanda kollektiv yaddaşın, mədəni identikliyin və ənənəvi dünyagörüşünün daşıyıcısı kimi xüsusi əhəmiyyət kəsb edir. Onların elmi əsaslarla sənədləşdirilməsi və təhlili türk xalqlarının folklor irsinin qorunması ilə yanaşı, doğum ətrafında formalaşan inancların sosial, mədəni və simvolik məzmununun daha dərindən anlaşılması baxımından da mühüm əhəmiyyət daşıyır.

## ƏDƏBİYYAT

1. Güney Azərbaycan folkloru. I kitab, Təbriz, Yekanat və Həmədan ərazilərindən toplanmış folklor örnəkləri. Bakı: “Elm və Təhsil” Nəşriyyatı, 2013.

2. Güven, F. Kars Halk Kültüründe Geçiş Dönemleri (Doğum, Evlenme, Ölüm). İstanbul: Kriter Yayınevi, 2021.

3. Qarabağ: folklor da bir tarixdir. III kitab (Ağdam, Füzuli, Cəbrayıl, Tərtər, Qubadlı, Zəngilan, Kəlbəcər, Laçın və Şuşa rayonlarından toplanmış folklor örnəkləri). Bakı: "Elm və Təhsil", 2012.

4. Qarabağ: folklor da bir taxihdir. VIII kitab (Kəlbəcər rayonundan toplanmış folklor örnəkləri). Bakı: Zərdabi LTD MMC, 2014.

5. Örnek, S.V. Türk Halk Bilimi, Ankara: BilgeSu Yayıncılık, 2016.

6. Perçemli, V. Gagauz Türklerinde Doğum, Evlenme, Ölüm Adetleri, Doktora Tezi. Ege Üniversitesi, Sosyal Bilimler Enstitüsü, 2011.

7. Məmmədova, M. "Qarabağ folklorunda doğum ritualları və inancları"// Ziyalı İşığında Ramazan Qafarlı – 70 Beynəlxalq İctimai və Mədəni Elmlər Konfransı, 15-16 iyul, Azərbaycan-Bakı. Web:www.izdas.org/ramazan-gafarli-kongresi, 465-471, 2021.

8. Məmmədova M., Mirzeyeva Q. "Azərbaycan və Anadoluda qırhtökmə mərasimi ilə bağlı adət-ənənələr və inanclar" // 6th International "Dede Korkut Conference of Turkish Culture, History And Literature". July, 20-21, Quba, Azerbaijan, 124-133, 2023.

9. Memmedova, M. "Azerbaycan ve Anadolu`da Kırklama Ritüelleri". Azerbaijan International Congress of Scientific Research,16-17 August 2023 Sheki, 102-113, 2023.

10. Memmedova, M. Postpartum Protective Rituals in the Folk Cultures of Azerbaijan and Gagauzia: Practices Against Kirkbasma and Albasma. 4.International Gelenekten Geleceğe Scientific Studies Congress, May 29-31 May, Turk Manas University, Kyrgyzstan, pp.122-139, 2025.

*Redaksiyaya daxilolma tarixi: İlkin variant: 20.04.2026*
*Son variant: 22.04.2026*